

**Hikmət Babaoğlu**
**siyasi elmlər doktoru, professor**

əvvəli ötən sayımızda

# Türk tarixi və mifoloji dünyagörüşündə atlar

## "Altay Buççay" dastanında atlar

***Bu dastan şimal-şərq türklərinin dastanı olmaqla olduqca az öyrənilən və türk dünyasında çox az tanınan dastanlarımızdandır. Ancaq çox maraqlı, bəzənsəhətta təzadlı süjetə malik dastandır. Daxili struktur və məzmun etibarilə ən qədim dastanlarımızdan biri hesab edilə bilər. "Altay Buççay" dastanı ilk dəfə olaraq Dağlıq Altayın (Qornıy Altayski) Koş-Ağac (Qoşa Ağac) kəndinin sakininin dilindən 1896-cı ildə Peterburq Universitetinin tələbəsi A.Kalaçev tərəfindən yazıya alınıb "Jivaya strana" jurnalında "Bılina ob Altay-Buççaye" adı altında çap edilib. Dastanın məzmunu haqqında qısa məlumat verməklə atın bu dastanda əsas rol oynadığını diqqətə təqdim edəcəyik. "Altay-Buççay" dastanında da atların uçması, sahibini qoruması və qan tərləməsi haqqında olduqca maraqlı məqamlar var. Hesab edirik ki, bu dastan mifoloji dövrlə epos dövrü arasında yaranmış yaradıcılıq nümunəsidir. Ona görə dəburada dastan sözünü şərti olaraq qəbul etmək lazımdır.***

Dastanda qeyd edilir ki, Altay Buuçay ova gedir və arvadına deyir ki, ən tez əlli, ən gec isə altmış ildən sonra qayıdacaq. O gələnədək odun üzərinə heyvanın qara ciyərini qoymasınlar, Qara dağa çıxmasınlar, Qara gölə getməsinlər. Lakin Altay Buççayın həyat yoldaşı Altın Tənə bu qadağalara sonuna qədər riayət etmir. Birillik dananın qara ciyərini bişirir, Qara dağın zirvəsinə çıxır və oradan Qara gölü görür. Qara gölə gedib orada üzən iki ördəkdən soruşur ki, Altay Buççayı gördünüzmü? Ördəklər isə Qara dəniz sahillərində yaşayan iki qardaş bahadır Aranay və Çaranaydan başqa heç kəsi görmədiklərini deyirlər. Altın Tənə Aranay və Çaranaya çatacaq məktub yazır və onu ördəyin qanadına bağlayır.

**Een yerdə mal kaldı,**
**Elen yerdə yurt kaldı,**
**Altay Buuçay barqannanq**
**Yeten yılda yedi berdi.**
**...Ölgöni yart!..**
**Kapşay bisti gelip aldın...**

Çevirməsi təqribən belədir:

**Sahibsiz yerdə mal qaldı,**
**Ərsiz yerdə yurd qaldı,**
**Altay Buuçay gedəndən**
**Ötən illər yeddiyə çatdı**
**...Öldü o, aydındır ki!..**
**Qaçaraq bizi gəlib alın...**

Aranayla Çaranay atalarının etirazlarına baxmayaraq, ördəklərin vasitəsilə məktubu alar-almaz Altay Buççayın arvadı Altın Tənə və bacısı Altın Sırqanı almağa gedirlər. İş elə gətirir ki, bu iki bahadırla iki gənc qadın evdə birlikdə olanda Altay Buççay ovdan qayıdır. Bu məqamdan etibarən artıq baş rolu Buççay bahadırın Qara ayğırı oynamağa başlayır. Ancaq əsas mövzumuz olan atlarla bağlı məsələlərə keçməzdən əvvəl qeyd etmək istərdik ki, bu dastan qadının ərinə xəyanət etdiyi yeganə türk dastanıdır. Üstəlik burada Buççay bahadırın həm həyat yoldaşı, həm də bacısı ona xəyanət edərək Aranay və Çaranayla əlbir olub onu öldürməyə cəhd edirlər. Hətta naməlum şəraitdə burada Altay Buççayın azyaşlı oğlu da öldürülür. Belə süjet türk dastanları üçün xarakterik deyil. Bütün dastanlarımızda qadın ocağın, ailənin və ərin sadiq müdafiəçisidir. Bəs görəsən, "Altay Buççay" dastanında bu ənənə niyə pozulur?! Fikrimizcə, bu düşünülmüş şəkildə dəyişdirilmiş süjetdir... Çünki sonrakı mərhələlərdə şimali-şərq türklərini assimilasiya etmək üçün onların qadınlarını ailə münasibətlərindən kənarda qoyur, bunun əvəzinə isə slavyan-rus qadınları ilə qurulan ailələri təbliğ edirdilər. Ona görə dədastandakı bu süjet və türk qadınının xəyanətkar olması növbəti mərhələdə rus işğalçı siyasətinə xidmət edəcək ideoloji vasitə olmalı idi. Doğrudan da Uraldan şərqə doğru olan türk torpaqları işğal edildikdən sonra qısa müddət ərzində orada sürətli assimilasiya prosesi başladı. Fikrimizcə, "Altay Buççay" dastanı yenidən öyrənilməli və orijinalı bərpa edilməlidir. ***Yeri gəlmişkən, bənzər metoddan bizə və digər türk xalqlarına qarşı da istifadə edilib və milli etnik yaddaşda özünüdərk problemi yaradılıb. Hələ bu, azmış kimi, bir milli utanc və aşağılıq kompleksi də aşılanıb. Məsələn, Qız qalası elm və astronomiya, mənəviyyat və ibadət qalası kimi tikilsə də, rus işğalından sonra belə bir süjet uydurulub ki, bu qlada ata aşiq olduğu qızını saxlayırmış, qız da buna dözməyib özünü dənizə atıb!Bənzər iyrənc süjetləri Dağıstan və Şimali Qafqazda olan qəhrəmanlıq qalaları haqqında da uydurublar. İş elə gətirib ki, mən az qala bu tarixi yerlərin hamısında olmuşam və hamısında da bələdçinin belə mənəviyyatsız uydurmalarına qulaq asmışam!*** Dərbənd qalasında buna etiraz edib həqiqəti söylədikdə isə bələdçinin radikal aqressiyası ilə qarşılaşmışam. Yalnız səfərimiz rəsmi olduğuna görə polisdən yaxa qurtara bilmişəm! Ona görə də Çar Rusiyası təkcə bizim torpaqlarımızı, Dərbəndimizi, İrəvanımızı vəbaşqa yerləri işğal etməyib, həm də tariximizi, mənəviyyatımızı, milli şüurumuzu işğal edib!İndi isə qayıdaq atlaraq Altay Buççay çadıra girmək istəyəndə atı ona xəbərdarlıq edir ki, evdə təhlükə var, içəri girməsin. Buççay bahadır ata acıqlanır və deyir:

**İçinq bolzo, yin tanqma, diyit,**
**Sırtınq borzo, tuulak, diyit.**
**Menq bilbeendi, sen biler be?**
**Menq sespendi, sen sesper be?**
**Yal yamakıyın yara tarttı,**
**Yol soonzın yara çaptı.**

Çevirməsi təqribən belədir:

**İçin kinli isə, danma, deyiblər,**
**Sırtın (belin) qalın dəridi, deyiblər.**
**Mən bilmədim, sənmi bildin?**
**Mən sezmədim, sənmi sezdin?**
**Gemi dartıb ağzını yırtdı:**
**Üzəngi ilə böyrünü yara etdi.**

Beləliklə, ata inanmaqdansa Buuçay bahadır onu tənbeh edir və içəri daxil olur. Atın dedikləri düz çıxır. Həyat yoldaşı və bacısının xəyanəti ona pis təsir edir, mənəvi sarsıntı keçirir və Aranayla Çaranaya məğlub olur, evi yağmalanır, yurdu dağılır...



> ***Bütün dastanlarımızda qadın ocağın, ailənin və ərin sadiq müdafiəçisidir. Bəs görəsən, "Altay Buççay" dastanında bu ənənə niyə pozulur?! Fikrimizcə, bu düşünülmüş şəkildə dəyişdirilmiş süjetdirgÇünki sonrakı mərhələlərdə şimali-şərq türklərini assimilasiya etmək üçün onların qadınlarını ailə münasibətlərindən kənarda qoyur, bunun əvəzinə isə slavyan-rus qadınları ilə qurulan ailələri təbliğ edirdilər. Ona görə dədastandakı bu süjet və türk qadınının xəyanətkar olması növbəti mərhələdə rus işğalçı siyasətinə xidmət edəcək ideoloji vasitə olmalı idi. Doğrudan da Uraldan şərqə doğru olan türk torpaqları işğal edildikdən sonra qısa müddət ərzində orada sürətli assimilasiya prosesi başladı. Fikrimizcə, "Altay Buççay" dastanı yenidən öyrənilməli və orijinalı bərpa edilməlidir. Yeri gəlmişkən, bənzər metoddan bizə və digər türk xalqlarına qarşı da istifadə edilib və milli etnik yaddaşda özünüdərk problemi yaradılıb. Hələ bu, azmış kimi, bir milli utanc və aşağılıq kompleksi də aşılanıb***

## "Altay Buççay" Axillesin arxetipidirmi?

Ancaq burada diqqət çəkən bir məqam da var. Altay Buççayın canı onun baş barmağındadır. "İliada" qəhrəmanı Axillesin canı dabanında olduğu kimi Axilles ancaq dabanından öldürülə biləcəyi kimi, Altay Buççay da yalnız baş barmağı kəsilərsə ölə bilər. Bədbəxtlik ondadır ki, həyat yoldaşı və bacısı onun bu sirrini də düşmənə veriblər. Aranayla Çaranay Buççayın baş barmağını da kəsib özləri ilə götürürlər. Elə buradaca yuxarıda qeyd etdiyimiz kimi yenidən yunan mifologiyası ilə türk mifologiyası arasında növbəti paraleli müşahidə edirik. Görəsən, baş barmaq və daban ölümsüzlüyü mifoloji süjeti türklərdənmi yunanlara, yoxsa yunanlardanmı türklərə keçib?Qanadlı atın sudan çıxması ilə bağlı süjetin türklərdən yunanlara keçdiyini iddia etmişdik. Çünki yunanlar ilk dəfə atı skiflərdə görmüşdülər. Onlar skif döyüşçülərini, bədəni at, başı isə insan başı olan qeyri-adi canlılar təsəvvür etmişdilər. Çünki skif döyüşçüləri atla bir orqanizm kimi həmahəng, harmonik hərəkət edir, döyüş vaxtı tək vücud olurdular. Buna görə dəyunanlar skif döyüşçülərini gördükdən sonra yunan mifologiyasında kentavr obrazı yarandı. Kentavr, əslində, skif döyüşçüsünün obrazı idi. Belə olan halda qanadlı at mifoloji süjeti də elə türklərdən yunanlara keçmiş olmalı idi. Çünki yunanlar atı türklərdən iki min il sonra tanımışdılar. Daban, barmaq məsələsi də eyni şəkildə izah edilə bilər. Tarixin heç bir dönəmində yunanların Uzaq Şərqə, Altaylara qədər gedib çıxan imperiya qura bilmələri ilə bağlı heç bir məlumat yoxdur. Ancaq türklərin Şərqdən Bizansa və Avropaya axını var. Daha dəqiq desək, türklər zaman-zaman Romaya və elə Afinaya qədər də uzanan imperiyalar qurmağı bacarıblar. Deməli, Altaylarda olan "barmaq" ölümsüzlüyü türklərdən yunanlara "daban" ölümsüzlüyü şəklində keçib. O zaman iddia edə bilərik ki, Altay Buççayın "baş barmaq" mifoloji süjeti Axillesin "daban" mifoloji süjetinin arxetipidir. Yeniondan qədimdirglkinci mühüm bənzərlik isə odur ki, Axillesin atası tanrıdır, ona görə də ölümsüz olmalıdır, ancaq anasının kiçik bir səhvi onu ölümlü edir. Axillesi ölümsüzlük suyunda çimizdirərkən əlini dabanından ayırmır və müqəddəs su oraya təmas edə bilmir. Ona görə də dabandan aldığı zərbə onu öldürə bilir. Altay Buuçay isə Tanrının oğlu deyil, ancaq onu xilas edəcək müqəddəs su yenə Tanrının yanındadır. Göründüyü kimi, sadə formada qədim türklərdə olan mifoloji süjetlər yunanlara gəlib çatdıqda bir az daha bəzəkdüzəkli və zəngin olur ki, bu da ellinlərin fəlsəfəyə daha çox meyilli olmaları ilə bağlıdır. Bu işi araşdırmağı mifoloqlarımıza vəzifə kimi buraxaq, mövzumuza qayıdaq...

***Xəyanət nəticəsində məğlub edilən Buuçay bahadırın atını Aranay minir. Vəfalı at baş verənləri heç cür qəbul etmək istəmir, Aranayın altında qəsdən büdrəyir və yıxılır. Belə olduqda Aranay atı buraxaraq öz atına minib yoluna davam edir. Buuçay bahadırın Qara atı azad olan kimi əfsanəvi Altın-Sarı ata əmr edir ki, altmış buynuzlu marala çevrilərək karvanın qabağında qaçsın. Beləliklə, düşmənin başı birdən-birə peyda olmuş maralı ovlamağa qarışır. Qızıl-Sarı at bu zaman qan fınxıraraq özünü tamamilə qana boyayır.***

***Qəflətən yağış yağmağa başlayır, onun qanı yuyularkən şiddətli tufan qopur. Aranayla Çaranay özlərini xilas etməyə çalışarkən Altay Buuçayın ov şahinləri onun kəsilmiş barmaqlarını və oğlunun kəsilmiş ayaqlarını düşmənin çadırından oğurlayaraq aparıb meşədə yaxşı bir yerdə gizlədir...***

(davamı gələn sayımızda)